**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№280/4** **7 noyabr 2016-cı il**

## Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən 2016-cı ilin üzvlük haqqının ödənilməsi vəziyyəti barədə

Auditorlar Palatasının üzvləri tərəfindən 2016-cı il üzrə üzvlük haqqının ödənilməsi vəziyyəti barədə Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun təqdim etdiyi arayışı (əlavə olunur) müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının üzvləri tərəfindən 2016-cı il üzrə üzvlük haqlarının ödənilməsi vəziyyəti qeyri-qənaətbəxş qiymətləndirilsin.

2. Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə" Təlimatın 4-cü maddəsinin 15-ci paraqrafına və Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin 9-cu "Müəyyən olunmuş qaydada üzvlük haqlarını ödəmədikdə" bəndinə əsasən Auditorlar Palatasının üzvü olan və 2015-2016-cı illər üzrə üzvlük haqqını tam və ya qismən ödəməyən auditor təşkilatlarına və sərbəst auditorlara dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq 2016-cı ilin 30 dekabr tarixinədək üzvlük haqqı borclarını tam məbləğdə ödəmədikləri halda, 2017-ci il 1 yanvar tarixindən onların Azərbaycan Respublikası ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq hüquqları ləğv edilsin və bu barədə müvafiq dövlət qurumları məlumatlandırılsın.

3. Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorların 2017-ci il üçün ödəniləcək üzvlük haqları barədə hesab-fakturaların göndərilməsi 2016-cı ilin noyabr ayında təmin edilsin.

4. Auditorlar Palatasının 2017-ci il üzrə iş planında üzvlük haqlarının hesablanması və ödənilməsi qaydasının, auditor xidməti göstərilməsinə dair tövsiyə olunan minimum qiymətlərin təkmilləşdirilməsi, auditor xidməti bazarında dempinq və haqsız rəqabət hallarının aradan qaldırılması və auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi sahəsində tədbirlər sisteminin işlənib hazırlanması və tətbiqi nəzərdə tutulsun.

5. Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bu qərarın Auditorlar Palatasının üzvlərinə çatdırılmasını təmin etsin və bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**